# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASI

**ƏMR**

**№** 1/13

**Bakı şəhəri** "10" fevral 2016 cı il

**Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının Apellyasiya Şurasının Katibliyinin yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2006-cı il tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"nin 15.7-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının Apellyasiya Şurasının cari fəaliyyətinin təşkilini təmin etmək məqsədi ilə

**əmr edirəm:**

1. Aşağıdakı tərkibdə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının Apellyasiya Şurasının Katibliyi (bundan sonra - Katiblik) yaradılsın:

**Katibliyin rəhbəri**

Günel Məmmədova - Məhərrəmova – Administrasiyanın Ümumi sektorunun baş məsləhətçisi

**Katibliyin tərkibi**

Şamil Məmmədov – Administrasiyanın İnformasiya texnologiyaları sektorunun müdiri

Ramil Qasımov – Administrasiyanın Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin Beynəlxalq əlaqələr və konvensiyalar sektorunun baş məsləhətçisi

2. Katibliyə tapşırılsın ki, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.6-cı bəndinə uyğun olaraq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Maliyyə-inzibati şöbəsinə (E.Bağırova) tapşırılsın ki, Katibliyin fəaliyyəti üçün müvafiq şəraitin yaradılması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Ümumi sektor (G.Məmmədova-Məhərrəmova) bu əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Administrasiyanın rəisi** Əsli ilə düzdür **Qüdrət Qurbanov**